# Müasir dövlətçilik ənənələrimizin yaradıcısı

Azərbaycan xalqı çox görkəmli, yenilməz, zəkalı, istedadlı sərkərdələr, dövlət və ictimai-siyasi xadimlər yetişdirmişdir. Qədirbilən xalqımız əsrlərlə ölçülən dövlətçilik tariximiz boyunca dahi şəxsiyyətlərin adlarını qoruyub saxlamış, nəsildən-nəslə, əsrdən-əsrə ötürmüş, onlara əbədiyyət heykəli ucaltmışdır. Yaxın tariximizdə belə zirvəyə yüksələn dahi şəxsiyyət ümummilli lider Heydər Əliyev olmuşdur. Hər il xalqımız Azərbaycanın böyük oğlu Heydər Əliyevin doğum gününü böyük sevinc və ehtiramla qeyd edir. Bu gün ulu öndəri tanıyan hər bir insan onun şəxsiyyəti və xalqımız üçün gördüyü misilsiz işlər barədə fikir yürütməyə mənəvi ehtiyac duyur. Ümummilli liderin parlaq şəxsiyyəti ilə bağlı ən müxtəlif fikir və mülahizələr, xoş xatirələr isə sonda bir nöqtədə birləşir: Heydər Əliyev bütün mənalı ömrünü doğma xalqına, Vətəninə həsr etmişdi.

Bu böyük insan haqqında deyilən sözlər, söylənilən fikirlər ifadə üslubuna görə fərqlənsə də, məzmunu ilə Heydər Əliyev şəxsiyyətinin dahiliyini ən müxtəlif aspektlərdən ifadə edir. Onun böyüklüyünü hər birimiz illər keçdikcə daha dərindən dərk edirik.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə mənsub olduğu millətin dilini, tarixini, mədəniyyətini dünyaya tanıtdı. O, SSRİ kimi böyük imperiyanın tərkibində olan Azərbaycanın 1978-ci ildə qəbul olunan Respublika Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail olmuşdur ki, bu da Heydər Əliyevin dilinə, dininə və xalqının milli dəyərlərinə bağlılığının parlaq təzahürüdür.

Azərbaycanın görkəmli rəssamları və ümumiyyətlə bütün sənət adamları da ulu öndərin qayğısı ilə əhatə olunmuşlar. Müdrik rəhbər Heydər Əliyev Azərbaycan rəssamlığına və ayrı-ayrı rəssamların yaradıcılığına böyük qiymət vermiş, onların hamisi olmuşdur. Heydər Əliyevin yüksək intellektual səviyyəyə, zəngin müşahidə və ən əsası rəssamlıq sənətinin sirlərinə bələd olması dövrünün bu sənətə bağlı insanları üçün böyük stimul və yaradıcılıq qaynağı olmuşdur. Heydər Əliyev Səttar Bəhlulzadə yaradıcılığına yüksək qiymət verərək deyirdi: "...XX əsrdə mədəniyyətimiz bütün sahələrdə sürətlə inkişaf edib, dünya mədəniyyətinə böyük simalar bəxş edib. Onların arasında rəssamlıq sahəsində Səttar Bəhlulzadənin xüsusi yeri var. O, nəinki Azərbaycan, həm də bütün dünya mədəniyyəti üçün, dünya rəssamlıq sənəti üçün görkəmli bir rəssamdır və böyük mədəni irs qoymuşdur. Azərbaycan xalqı belə bir şəxsiyyəti ilə, belə bir insanla fəxr edir və bundan sonra da fəxr edəcəkdir". Ulu öndər heç bir zaman sənətkarın yaradıcılığını şəxsiyyətindən ayırmırdı. Şəxsiyyətlə yaradıcılığın vəhdətini sənətin tükənməz enerji mənbəyi hesab edirdi. Ulu öndər fenomenal fəaliyyətində zaman-zaman milli rəssamlıq məktəbinin görkəmli nümayəndələrinin yaradıcılığı haqqında dəyərli fikirlər söyləmiş, onlarla görüşüb ünsiyyət saxlamışdır. Tahir Salahov, Toğrul Nərimanbəyov, Elmira Şahtaxtinskaya, Oqtay Sadıqzadə, Maral Rəhmanzadə və başqa yaradıcı insanlar onun sənətkar kimi yüksək qiymətləndirdiyi şəxsiyyətlər idi.

Dahi şəxsiyyət hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq, müstəqillik duyğularının baş qaldırmasına səbəb olmuşdur.

Taleyinə qurmaq və yaratmaq missiyası yazılmış bu böyük şəxsiyyət xalqın təkidi ilə xilaskarlıq missiyasını öz üzərinə götürərək müdrikliyi, uzaqgörənliyi, dəmir iradəsi sayəsində xalqımızı, dövlətçiliyimizi bir çox bəlalardan xilas etdi. 90-cı illərin əvvəllərində ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev ölkədə vətəndaş müharibəsinin qarşısını aldı, ayrı-ayrı siyasi qüvvələri və şəxslərə tabe olan silahlı birləşmələri ləğv etdi. Vahid komandanlığa tabe olan ordu yaratdı. Ulu öndər tərəfindən görülən böyük işlərin, həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyasının məntiqi nəticəsidir ki, bu gün xalqımız müstəqil, demokratik və hüquqi dövlətdə yaşamaq imkanı əldə etmiş, öz xoşbəxt gələcəyini təyin etmək üçün bütün təminatlara, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olmuşdur. Onun rəhbərliyi altında həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda böyük işlər görülməklə milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun köklü islahatlar aparılmışdır.

Ümummilli lider Heydər Əliyevin dövlət idarəçiliyi ilə əlaqədar keçirdiyi hər bir tədbir, qəbul etdiyi hər bir qərar, söylədiyi fikirlər müstəqil dövlətimizin bu günü və gələcəyi üçün böyük əhəmiyyət daşıyır.

Heydər Əliyev Azərbaycanda müstəqil dövlətimizin ənənələrinin yaradıcı və milli dövlətçilik təfəkkürünün formalaşmasında tarixi rol oynayan böyük şəxsiyyətdir. Azərbaycan dövlətinin mövcudluğu Ümummilli liderimizin adı ilə bağlıdır, çünki Heydər Əliyev siyasi kursundan kənarda bu dövlətin varlığı barədə danışmaq qeyri-mümkündür. Heydər Əliyevin siyasi kursu bizim sabahımızın, gələcəyimizin, inkişafımızın, tərəqqimizin qarantıdır.

Ulu öndərin hakimiyyəti dövründə ən mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də mühüm addımlar atıldı. Ulu öndər Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı əsas diqqəti bu münaqişəyə yönəldərək, Ermənistanın işğalçılıq siyasətini dünyaya bəyan etdi. O, dünyanın ən nüfuzlu təşkilatlarının tribunalarından Azərbaycan həqiqətlərini, Dağlıq Qarabağ probleminin əsl mahiyyətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq erməni yalanlarını faktlarla ifşa edirdi.

Lakin xalqımızın bu taleyüklü ağır probleminin həlli ulu öndərin özü kimi inandığı davamçısı Prezidentimiz İlham Əliyevin öhdəsinə düşdü. Azərbaycan Qarabağa qovuşdu, Tarixi Zəfərə imza atdı, şəhidlərimizin, Xocalı soyqırımı zamanı həlak olan günahsız insanların qisası döyüş meydanında alındı, işğalçı Ermənistana layiq olduğu yer göstərildi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz oldu.

İndi Azərbaycan vətəndaşı öz sabahından narahat olmaya bilər. Heydər Əliyevin ölkəyə sabitlik və rifah gətirən siyasi kursu hələ uzun illər davam edəcək. Azərbaycanın gələcək inkişafına əminlik, həm də Prezident İlham Əliyevin siyasi müdrikliyinə, xarizmasına və güclü iradəsinə, ümumxalq etimadından irəli gəlir. Qarşıda duran dövr tarixi-siyasi məzmununa görə əvvəlkilərdən xeyli fərqlənir və bu da təsadüfi deyil. Çünki artıq Azərbaycan tamamilə yeni bir mərhələyə qədəm qoymuşdur: dövlət quruculuğu prosesi uğurla başa çatdırılıb, iqtisadi sahədə kifayət qədər böyük nailiyyətlər var, demokratikləşmənin müsbət nəticələri göz qabağındadır və bütün bunlarla bərabər, beynəlxalq münasibətlər sistemində respublikamızın mövqeləri nəzərəçarpacaq səviyyədə möhkəmlənmişdir.

Heydər Əliyev şərəfli həyat və fəaliyyəti ilə tarixi min illərlə hesablanan, dünyanın zəfər salnaməsinə şanlı səhifələr yazmış qədim bir xalqın rəmzi səviyyəsinə yüksəlmişdir. Bu gün hər bir Azərbaycan vətəndaşının qəlbində ulu öndərin ölməz və işıqlı obrazı yaşayır.

Ulu öndərin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri, ölkəmizin müstəqilliyinin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlətin qurulmasında və onun hərtərəfli inkişafında misilsiz fəaliyyəti xalqımız tərəfindən daim fəxarətlə qeyd olunaraq əziz xatirəsi böyük məhəbbətlə, ehtiramla yad edilir.

**Ülviyyə HƏMZƏYEVA,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2022.- 6 may.- S.4.